**Azərbaycan Respublikasının Vəkillər Kollegiyasının sədri**

**cənab Anar Bağırova**

**Ağdam rayonu Mərzili kənd sakini, Ağdam rayonu Quzanlı Köçkün qəsəbəsi ev 667-də yaşayan Əliyev Fikrət Gülməmməd oğlu və ailə üzvləri tərəfindən**

**Tel: 051-883-80-17.**

**Təşəkkür məktubu**
**(Bakı şəhəri 38 saylı Vəkil Bürosunun vəkili Nəcəfov Şamil Rövşən oğlunun barəsində)**

**Hörmətli Anar müəllim,**

Oğlum Əliyev Gülməmməd Fikrət oğlu 15 mart 2024-cü il tarixdə Saatlı rayon polis şöbəsinin əməkdaşları tərəfindən tutulmuş, onun barəsində Azərbaycan Respublikası CM-nin 234.4.3-cü maddəsi ilə cinayət işi başlanaraq ona həmin maddədə nəzərdə tutulan ittiham elan edilmiş və həbs olunmuşdur.

2024-cü ilin may ayında Bakı şəhəri 38 saylı Vəkil Bürosunun vəkili Nəcəfov Şamil Rövşən oğlu ilə müqavilə bağladıqdan dərhal sonra vəkil Şamil Nəcəfov müdafiə hərəkətlərinə başlamış, oğlum Gülməmməd Əliyevin təqsirsizliyinin müəyyən edilməsi üçün bütün qanuni üsullardan istifadə etmiş, oğlumu daimi olaraq müdafiə altında saxlamışdır.

Saatlı rayon polis şöbəsinin sabiq müstəntiqi Eldost Ələkbərov həmin cinayət işini baxılması üçün 2025-ci ilin yanvar ayında Lənkəran Ağır Cinayətlər Məhkəməsinə göndərsə də, vəkil Şamil Nəcəfovun peşəkarlığı nəticəsində Məhkəmə 06 fevral 2025-ci il tarixdə cinayət işini əlavə istintaqa qaytarmış, müstəntiqin barəsində isə xüsusi qərar çıxarmışdır. Nəticədə Eldost Ələkbərov müstəntiq işindən azad edilmişdir.

Bundan sonra isə vəkil Şamil Nəcəfov əvvəlcə 28 fevral 2025-ci il tarixdə oğlum Gülməmməd Əliyevin həbsdən azad olunmasına, son nəticədə isə 20 iyun 2025-ci il tarixdə onun barəsində Azərbaycan Respublikası CM-nin 234.4.3-cü maddəsi ilə istintaqı davam etdirilən cinayət işinin Azərbaycan Respublikası CPM-nin 39.2-ci maddəsinə əsasən bəraətverici əsaslarla xitam olunmasına nail olmuşdur.

Vəkil Şamil Nəcəfovun cinayət işini oğlum Gülməmməd Əliyevin xeyrinə başa çatdırması məni, ailə üzvlərimi, qohumlarımı və tanışlarımı sevindirmişdir. Buna görə də Əliyevlər ailəsi olaraq Sizdən çox razıyıq. Məhz Sizin rəhbərliyinizlə düzgün kadr seçiminin aparılması, vəkil Şamil Nəcəfov kimi gənc vəkillərin Vəkillər Kollegiyasına üzv seçilməsi nəticəsində biz vətəndaşların hüquqlarının, qanuni mənafelərinin qorunması etibarlı əllərdədir. Oğlum Gülməmməd Əliyevin təqsirinin olmaması ilə bağlı Polis, Prokurorluq və Məhkəmə orqanlarına müraciət etsək də, bir nəticəsi olmamış, yalnız vəkil Şamil Nəcəfovun təkbaşına apardığı haqlı mübarizədə o, tam qalib gəlmişdir.

Saatlı rayon polis şöbəsi və Saatlı rayon prokuroru vəkil Şamil Nəcəfovun oğlum Gülməmməd Əliyevin hüquqlarını qorumasına dəfələrlə süni maneələr yaratmağa cəhd etsələr də məhz vəkil Şamil Nəcəfovun yüksək peşəkarlığı, heç bir təhdiddən qorxmaması, cəsarət nümayiş etdirməsi nəticəsində buna nail ola bilmədilər.

Vəkil Şamil Nəcəfovun oğlum Gülməmməd Əliyevi sona qədər müdafiə edib cinayət işini onun xeyrinə başa çatdırması ailə üzvlərimin, qohumlarımın, tanışlarımın və yaşadığım Ağdam rayonunda insanların rəğbətini qazanmış, bizim gözümüzdə vəkilliyin nüfuzu daha da ucalara qalxmışdır.

Qeyd etdiklərimə görə, öz adımdan, ailəmin və qohumlarımın adından Sizə təşəkkür edir, Sizə, Vəkillər Kollegiyasının hər bir üzvünə gələcək işlərinizdə uğurlar arzulayırıq.

Qoşma: şəxsiyyət vəsiqələrinin surəti "02" vərəq.

**İmza:** **Əliyev Fikrət Gülməmməd oğlu**

**İmza:** **Əliyev Gülməmməd Fikrət oğlu**

**04 yanvar 2026-cı il.**

Vəkillər Kollegiyasının
Rəyasət Heyəti
Daxil olma № 82
«08» 01 2026 il

# AZƏRBAYCAN RESPUBLİKASI

VƏTƏNDAŞININ ŞƏXSİYYƏT VƏSİQƏSİ

Seriya AZE № 07617406



Soyadı
ƏLİYEV

Adı
FİKRƏT

Atasının adı
GÜLMƏMMƏD OĞLU

Doğulduğu yer və tarix
AZƏRBAYCAN,AĞDAM ray.,MƏRZİLİ K.,04.05.1958

I<AZEALIYEV<<FIKRAT<<<<<<<<<<<<<<<<<<

07617406<7AZE5805048M<<<<<<00SPMQ7J7

| Ailə vəziyyəti | Hərbi vəzifəsi | Qan qrupu | Gözlərinin rəngi | Cinsi |
|---|---|---|---|---|
| Evli | yoxdur | O(I)RH+ | Şabalıdı | K |

Yaşayış yeri
AĞDAM ray.,MƏRZİLİ K.

Boyu
167

AZƏRBAYCAN RESPUBLİKASI DİN 01-021

Vəsiqəni verən orqanın adı
AĞDAM RPŞ

Vəsiqənin verilmə tarixi
19.06.2010

Vəsiqə sahibinin imzası